**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
NAZİRLƏR KABİNETİ**

**S Ə R Ə N C A M**

**“Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin “Naxçıvan Muxtar Respublikasında avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” 2024-cü il 29 avqust tarixli 250-VI FR nömrəli, “Naxçıvan Muxtar Respublikasında informasiya kommunikasiya texnologiyaları və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” 2024-cü il 18 oktyabr tarixli 3-VII FR nömrəli fərmanlarında və “Naxçıvanpoçt” publik hüquqi şəxsin yaradılması haqqında” 2019-cu il 4 noyabr tarixli 412-05/S nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 19 mart tarixli 12-VII FR nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında**

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin “Naxçıvan Muxtar Respublikasında avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” 2024-cü il 29 avqust tarixli 250-VI FR nömrəli, “Naxçıvan Muxtar Respublikasında informasiya kommunikasiya texnologiyaları və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” 2024-cü il 18 oktyabr tarixli 3-VII FR nömrəli fərmanlarında və “Naxçıvanpoçt” publik hüquqi şəxsin yaradılması haqqında” 2019-cu il 4 noyabr tarixli 412-05/S nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 19 mart tarixli 12-VII FR nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə:

1. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının “Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin “Naxçıvan Muxtar Respublikasında avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” 2024-cü il 29 avqust tarixli 250-VI FR nömrəli, “Naxçıvan Muxtar Respublikasında informasiya kommunikasiya texnologiyaları və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” 2024-cü il 18 oktyabr tarixli 3-VII FR nömrəli fərmanlarında və “Naxçıvanpoçt” publik hüquqi şəxsin yaradılması haqqında” 2019-cu il 4 noyabr tarixli 412-05/S nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 19 mart tarixli 12-VII FR nömrəli Fərmanına (bundan sonra – Fərman) uyğunlaşdırılması ilə bağlı təkliflərini bir ay müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2. Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları bir aydan gec olmayaraq, Fərmanın icrasını təmin etmək məqsədilə öz səlahiyyətləri daxilində normayaratma vəzifələrindən irəli gələn tədbirlər görüb, normativ hüquqi aktlarını və ya təkliflərinin olmadığı barədə məlumatı Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə təqdim etsinlər və icra vəziyyəti tələb etdikdə, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versinlər.

3. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Fərmana uyğunlaşdırılmasını təmin edib, bu barədə iki ay müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, “7” aprel 2025-ci il

№ 42s